AVRASİYA ƏMƏKDAŞLIQ FONDU

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

# Səhmlərinə nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və büdcə təşkilatlarının illik maliyyə hesabatlarının dərc edilmə səviyyəsinin qiymətləndirilməsi

prof Rasim Həsənov

07 iyul 2017-ci il

# Təqdimatın strukturu

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

EURASIA PARTNERSHIP FOUNDATION

*Araşdırmaların əhatə dairəsi və strukturu sifarişçi tərəfindən təsbit olunmuşdur*

1. İllik Maliyyə və fəaliyyət hesabatlılığına dair SOCAR, Azərenerji, Azərsu, Azal və Azərbaycan dəmir yolları şirkətlərinin daxili normativ sənədlərinin təhlili və sənədlərin qanunvericiliyə uyğunluğunun araşdırılması
2. SOCAR, Azərenerji, Azərsu, Azal və Azərbaycan dəmir yolları şirkətlərinin İllik Maliyyə və Fəaliyyət hesabatlarının aşkarlanması praktikasının təhlili

3 Sirkətlərin İllik Maliyyə və Fəaliyyət hesabatlarının yaxşılaşdırılmasına dair təklif və tövsiyyələr

# Aktuallığı şərtləndirən amillər

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

EURASIA PARTNERSHIP FOUNDATION

1. Müasir milli dövlətçilik fəlsəfəsinin mühüm determinantı- çoxvektorlu inteqrasiya və milli maraqların təmin olunması "xərclərinin" rasionallaşdırılması
2. Qabaqcıl dövlət idarəçiliyi və cəmiyyətin sosial fəallığının yüksəldilməsi üzrə beynəlxalq təşəbbüslərə qoşulma
3. Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə sahəsində davamlı strategiyanın uğurları
4. Açıq hökumət tərəfdaçlığı təşəbbüsü, dövlət idarəçiliyində İKT tətbiqinin və ictimai iştirakçılığın genişləndirilməsi
5. “Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı”

# Açıq hökumətin təşviqinə dair
# 2016- 2018-ci illər üçün Milli Fəaliyyət Planı

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

EURASIA PARTNERSHIP FOUNDATION

5. Maliyyə şəffaflığının təmin edilməsi

5.5. Səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və büdcə təşkilatlarının illik maliyyə fəaliyyəti, o cümlədən dövlət büdcəsindən ayrılmış vəsaitdən və ya onlara verilmiş əmlakdan istifadə ilə bağlı məlumatların internet səhifələrində dərc edilməsi ilə əlaqədar qanunvericiliyin təkmilləşdirilməsi və bu hesabatların dərc edilməsinə nəzarətin gücləndirilməsi

# Araşdırmanın konsepsiyası

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

EURASIA PARTNERSHIP FOUNDATION

✓ ***Dövlətin həll edici rolu, böyük resurslara malik olması ilə yox, formalaşdırdığı milli təsərrüfatçılıq mühüti və apardığı iqtisadi siyasətin, dövlət aktivlərinin iqtisadi inkişafı stimullaşdırma və dəstəkləmə xarakteri ilə şərtlənir.***

✓ **Bazar münasibətləri şəraitində milli İqtisadi sistemin məhsuldar və dayanıqlı inkişafının əsas təminediciləri**:

✓ sistemin daxili inkişaf potensialının səfərbər olunması,

✓ "özünü inkişaf" qabiliyyətinin bərpası,

✓ resursların istifadəsinin səmərəliliyinin yüksəldilməsi ilə ***səciyyələnir.***

# Daxili normativ sənədlərin qanunvericiliyə uyğunluğunun araşdırılması

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

EURASIA PARTNERSHIP FOUNDATION

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin** fəaliyyətinin təşkilinin hüquqi-normativ bazasını təşkil edən Nizamnaməsi 18 sentyabr 2004-cü il tarixli, 127 nömrəli fərmana əsasən dəyişikliklərlə Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 24 yanvar tarixli, 844 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.

- ❑SOCAR-da, Nizamnaməyə əsasən şirkətin müstəqil balansı ilə yanaşı, onun tərkibinə daxil olan müəssisələr üzrə icmal (konsolidə) hesabatı tərtib edilir.
- ❑Şirkət onun tərkibinə daxil olan müəssisələrlə qarşılıqlı hesablaşmaların aparılmasını özünün mərkəzləşdirilmiş mühasibatlığı tərəfindən həyata keçirir.
- ❑ Şirkət qanunvericiliklə müəyyən edilmiş qaydada mühasibat uçotu aparmaqla, statistika hesabatını tərtib edir və müvafiq dövlət orqanlarına təqdim edir.
- ❑Qanunvericilikdə Şirkətin fəaliyyət hesabatını tərtib edilməsi və onun ictimaiyyətə aşkarlanması ilə bağlı bir başa tələblər yoxdur.

# Daxili normativ sənədlərin qanunvericiliyə uyğunluğunun araşdırılması

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

EURASIA PARTNERSHIP FOUNDATION

## "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti

Azərbaycan Respublikası Prezidentinin 423 saylı 17.09.1996-cı il tarixli Fərmanına əsasən ilkin mərhələdə səhmləri 100 faiz dövlətə məxsus olmaqla, Azərbaycan Respublikası Dövlət Əmlak Komitəsinin 200 saylı 28.12.1996-cı il tarixli Sərəncamı ilə "Azərenerji" Açıq Tipli Səhmdar Cəmiyyəti təsis edilmiş və 17.03.1997-ci il tarixdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir (Döv.qeyd. №-si 2234).

"Azərenerji"  ASC-nin nizamnaməsi haqqında , mövcud elektron məlumatlar bazasında heç bir açıq informasiya yoxdur.

# Daxili normativ sənədlərin qanunvericiliyə uyğunluğunun araşdırılması

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

EURASIA PARTNERSHIP FOUNDATION

## “Azərsu” Açıq Səhmdar Cəmiyyəti

- AR Milli Məclisinin 1995-ci il 12 may tarixli, 1038 nömrəli Qərarı ilə yaradılmış Abşeron Regional Cəmiyyətinin əsasında AR Prezidentinin 2004-cü il 11 iyun tarixli, 252 nömrəli Sərəncamı ilə yenidən təşkil edilmişdir.
- ASC-nin nizamnaməsi AR NK 2011-ci il 4 may tarixli 68 nömrəli qərarı ilə təsdiq edilmişdir.
- Cəmiyyətin bütün səhmləri dövlətə məxsusdur. Dövlət adından Cəmiyyətin səhmlərinin saxlayıcısı kimi Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi çıxış edir.

# Daxili normativ sənədlərin qanunvericiliyə uyğunluğunun araşdırılması

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

EURASIA PARTNERSHIP FOUNDATION

## «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyəti

AR Prezidentinin 20 iyul 2009-cu il tarixli sərəncamı ilə yaradılmışdır. Nazirlər Kabinetinin 15 fevral 2010-cu il tarixli qərarı ilə «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsi və strukturunu təsdiq edilmişdir.

QSC-nin nizamnaməsi haqqında , mövcud elektron məlumatlar bazasında heç bir açıq informasiya yoxdur.

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

EURASIA PARTNERSHIP FOUNDATION

## “Azərbaycan Hava Yolları” (AZAL)

1992-ci ilin aprelində müstəqillik əldə etdikdən sonra Respublika hökumətinin qərarı ilə Azərbaycanda aviasiya üzrə dövlət orqanı - "Azərbaycan Hava Yolları" Dövlət Konserni yaradılmışdır.

2008-ci ilin aprelində Azərbaycan Prezidentinin sərəncamı ilə dövlət konserni yenidən formalaşdırılaraq "Azərbaycan Hava Yolları" QSC adlandırılmışdır.

# Səhmdar cəmiyyətlər haqqında milli qanunvericiliyin xüsusiyyətləri

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

EURASIA PARTNERSHIP FOUNDATION

- Dünya təcrübəsində SC-lərin yaradılması, idarəçiliyi, eləcə də təsisçilərinin (səhmdarlarının) hüquqları xüsusi normalarla tənzimlənir.
- SC-nin korporativ idarəetmə hüququna görə, Azərbaycan qanunvericiliyi Avropa modelinə əsaslanır.
- Azərbaycanda 2004-cü ilin mart ayının 6-dək “Səhmdar cəmiyyəti haqqında” 12 iyul 1994-cü il qanunu fəaliyyət göstərirdi.
- 2004-cü ildən sonra isə SC-lərin fəaliyyətində əsas normativ aktı Mülki Məcəllə (MM) təşkil edir .

# Səhmdar cəmiyyətlər haqqında milli qanunvericiliyin xüsusiyyətləri

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

EURASIA PARTNERSHIP FOUNDATION

- 2011-ci ilin yanvar ayında İqtisadi İnkişaf Nazirliyi “Azərbaycan Korporativ İdarəetmə Standartları”nı təsdiq etmişdir.
- İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Korporativ idarəetmə prinsiplərinə uyğunlaşdırılmış yerli standartlar SC-lər üçün kifayət qədər mütərəqqi idarəetmə normaları müəyyən edir.
- Lakin standartların istifadəsi könüllü olduğu üçün onun praktikada tətbiq olunacağı əvvəlcədən böyük şübhə döğururdu.
- Altı ildən çox zaman keçməsinə baxmayaraq, bank və ya sığorta şirkəti olmayan hər hansı SC hələ nizamnaməsini bu standarlara uyğunlaşdırdığını bəyan etməmişdir.

# Səhmdar cəmiyyətlər haqqında milli qanunvericiliyin xüsusiyyətləri

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

EURASIA PARTNERSHIP FOUNDATION

- Milli qanunvericilikdə səhmdar cəmiyyətlərinin maliyyə hesabatlılğı, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 9 iyun 2005-ci il tarixli 102 nömrəli qərarı ilə təsdiq edilmiş «İri dövlət vergi ödəyicilərinin gəlirlər və xərclər smetalarının tərtibi Qaydaları» və «İri dövlət vergi ödəyicilərinin gəlirlər və xərclər smetalarının icrası üzrə monitorinqin aparılması Qaydaları» əsasında təmin edilir.
- Qərarda Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, «Azərenerji» ASC-nin, «Azərbaycan Dəmir Yolları» QSC-nin, «Azərsu» ASC-nin, «Azərbaycan Hava Yolları» QSC və digərlərinin maliyyə-təsərrüfat fəaliyyətinə, onların gəlirlərinin və xərclərinin proqnozlaşdırılmasına və icrasına nəzarəti daha da gücləndirmək, habelə bu sahədə şəffaflığın artırılmasını təmin etmək məqsədi ilə müvafiq mexanizm və zəruri tədbirlər müəyyənləşdirilmişdir.

# Səhmdar cəmiyyətlər haqqında milli qanunvericiliyin xüsusiyyətləri

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

EURASIA PARTNERSHIP FOUNDATION

- İri dövlət vergi ödəyicilərinin gəlirlər və xərclər smetalarının icrası üzrə monitorinqin aparılması qaydalarına əsasən monitorinqin aparılması — zəruri məlumatları və hesabatları almaqla və ilkin sənədləri araşdırmaqla iri dövlət vergi ödəyicisinin Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş gəlirlər və xərclər smetalarının faktiki və proqnoz göstəricilərinin təhlil edilməsini və qiymətləndirilməsini nəzərdə tutur.
- Monitorinq Azərbaycan Respublikası Nazirlər Kabinetinin hər il təsdiq etdiyi qrafikə uyğun müddətlərdə Maliyyə, İqtisadiyyat və aidiyyəti üzrə Nazirliyin nümayəndələri daxil edilməklə yaradılan işçi qrupu tərəfindən Maliyyə Nazirliyinin vəsiqəsi əsasında aparılır.
- İri dövlət vergi ödəyicilərinin gəlirlər və xərclər smetalarının icrası üzrə monitorinqin aparılması zamanı smetaların qüvvədə olan qanunvericilik aktlarının tələblərinə uyğunluğu, vəsaitlərin mədaxil və məxaricinin uçotda və gəlirlər və xərclər smetasının icrasına dair hesabatda əks etdirilməsini nəzərdə tutulur.

# Səhmdar cəmiyyətlər haqqında milli qanunvericiliyin xüsusiyyətləri

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

EURASIA PARTNERSHIP FOUNDATION

- ✓ AR NK 01.10.2014 tarixli 321 qərarı ilə təsdiq edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunu aparmalı və maliyyə hesabatlarını təqdim etməli qurumların sırasında tədqiq olunan təşkilatlarda vardır.
- ✓MHBS mühüm missiyası ictimai əhəmiyyətli təşkilatlarda maliyyə resurslarından istifadənin nəticəliliyi və səmərəliliyinin qiymətləndirilməsi üçün, qurumun fəaliyyətinin açıqlığı və müqayisəliliyinin mümkünlüyünün təmin edilməsi hesab edilir.
- ✓Azərbaycan Respublikası üçün mühüm əhəmiyyət kəsb edən SOCAR, Azərsu, Azenerji, Azal və ADY kimi səhmdar cəmiyyətlərinin fəaliyyətində MHBS standartlarının tətbiqi son dərəcə vacib vəzifədir.

**Şirkətlərin İllik Maliyyə və Fəaliyyət hesabatlarının aşkarlanması praktikasının təhlili**

# *Formal Qiymətləndirmə*

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

EURASIA PARTNERSHIP FOUNDATION

## *SOCAR*

- ✓ Nizamnamə dərc olunub,
- ✓ Konsolidə olunmuş maliyyə hesabatları dərc olunur.
- ✓ Fəaliyyət haqqında məlumatlar qiymətləndirmə üçün yetərli deyildir
- ✓ MHBS tələbləri qismən təmin edilir.
- ✓ Korporativ İdarəetmə Standartları qismən təmin edilir
- ✓ İri dövlət vergi ödəyicilərinin gəlirlər və xərclər smetalarının tərtibi Qaydaları və Onun icrası üzrə monitorinqin aparılması Qaydalarına əməl olunması haqqında məlumatlar yoxdur
- ✓ Tədqiqat sorğusuna qeyri qənaətbəxş cavab verilib

## Şirkətlərin İllik Maliyyə və Fəaliyyət hesabatlarının aşkarlanması praktikasının təhlili

# *Formal Qiymətləndirmə*

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

EURASIA PARTNERSHIP FOUNDATION

## *Azərsu ASC*

- ✓ Nizamnamə dərc olunub,
- ✓ Konsolidə olunmuş maliyyə hesabatları dərc olunur.
- ✓ Fəaliyyət haqqında məlumatlar qiymətləndirmə üçün yetərli deyildir
- ✓ MHBS tələbləri qismən təmin edilir.
- ✓ Korporativ İdarəetmə Standartlarının tətbiqi haqqında məlumatlar yoxdur
- ✓ İri dövlət vergi ödəyicilərinin gəlirlər və xərclər smetalarının tərtibi Qaydaları və Onun icrası üzrə monitorinqin aparılması Qaydalarına əməl olunması haqqında məlumatlar yoxdur
- ✓ Tədqiqat sorğusuna qeyri qənaətbəxş cavab verilib

**Şirkətlərin İllik Maliyyə və Fəaliyyət hesabatlarının aşkarlanması praktikasının təhlili**

# *Formal Qiymətləndirmə*

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

EURASIA PARTNERSHIP FOUNDATION

## *Azərenerji ASC*

- ✓ Nizamnamə dərc olunmayıb,
- ✓ Konsolidə olunmuş maliyyə hesabatları dərc olunur.
- ✓ Fəaliyyət haqqında məlumatlar qiymətləndirmə üçün yetərli deyildir
- ✓ MHBS tələbləri qismən təmin edilir.
- ✓ Korporativ İdarəetmə Standartlarının tətbiqi haqqında məlumatlar yoxdur
- ✓ İri dövlət vergi ödəyicilərinin gəlirlər və xərclər smetalarının tərtibi Qaydaları və Onun icrası üzrə monitorinqin aparılması Qaydalarına əməl olunması haqqında məlumatlar yoxdur
- ✓ Tədqiqat sorğusuna cavab verilməyib.

**Şirkətlərin İllik Maliyyə və Fəaliyyət hesabatlarının aşkarlanması praktikasının təhlili**

# *Formal Qiymətləndirmə*

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

EURASIA PARTNERSHIP FOUNDATION

## *Azal və ADY QSC*

- ✓ Nizamnamə dərc olunmayıb,
- ✓ Konsolidə olunmuş maliyyə hesabatları dərc olunmur.
- ✓ Fəaliyyət haqqında məlumatlar qiymətləndirmə üçün yetərli deyildir
- ✓ MHBS tələblərinin təmin edilməsini müəyyənləşdirmək mümükün deyildir
- ✓ Korporativ İdarəetmə Standartlarının tətbiqi haqqında məlumatlar yoxdur
- ✓ İri dövlət vergi ödəyicilərinin gəlirlər və xərclər smetalarının tərtibi Qaydaları və Onun icrası üzrə monitorinqin aparılması Qaydalarına əməl olunması haqqında məlumatlar yoxdur
- ✓ Tədqiqat sorğusuna cavab verilməyib.

# Şirkətlərin İllik Maliyyə və Fəaliyyət hesabatlarının aşkarlanması praktikasının təhlili

## *Formal yekun qiymətləndirmə*

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

EURASIA PARTNERSHIP FOUNDATION

- ✓ İctimai əhəmiyyətli, iqtisadi sistemdə struktur yaradıcı, trend formalaşdırıcı xüsusiyyətlərə malik, **İri Dövlət Şirkətlərinin fəaliyyətlərinin aşkarlığı və şəffaflğı müasir dünya təcrübəsi və milli qanunvericiliyin tələblərinə tam cavab vermir**
- ✓ **Şirkətlərin aşkarlanan məlumatları bir çox hallarda imitasiya xarakteri daşıyır** ( Məsələn Hökumətin hesabatı (s.150)-Nəsimi rayonunda 0.2 km çox məhəllədaxili su kəmərləri çəkilmişdir?...)
- ✓ Rəsmi elektron saytlarda məlumatlar gecikdirilir(2016-cı ilin hesabatları hələdə yoxdur)
- ✓ Saytların iş prinsipini- “Mahiyyət daşıyan məlumatların gizlədilməsi” və “özünü reklam” kimi xarakterizə etmək olar.

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

Eurasia Partnership Foundation

## *Mahiyyət Qiymətləndirməsinin fərziyyələri:*

- ✓ Dövlət müəssisələri ”xüsusi statusları” sayəsində de-fakto əldə etdikləri “qeyri-leqal idarəetmə funksiyaları” hesabına,bir çox hallarda geniş spektrdə təsərrüfatçılıq mühütinə ciddi təsir gücünə malikdir.
- ✓ İqtisadi dövriyyədə qiymət trendlərini formalaşdıran güc kimi kifayət qədər yüksək mənfəətliliyə malik olmalıdırlar.
- ✓ Belə müəssisələrin indiki “fəaliyyət modelini“, iqtisadiyyatda təkmil rəqabət mühütinin formalaşdırılmasının əsas maneələri hesab etmək olar.

**Şirkətlərin İllik Maliyyə və Fəaliyyət hesabatlarının aşkarlanması praktikasının təhlili**

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

EURASIA PARTNERSHIP FOUNDATION

## 2016-cı ilin yekunları

- Mülkiyyətçinin gəliri kimi, Dövlət büdcəsinə ödəmə və ayırmalarının çox zəif dinamikası qalmaqdadır.
- Səhmlərində dövlətin payı olan müəssisələrin dvident kimi büdcə ayırmaları cəmi 617.0 min manat və ya tapşırığın 11.7% qədər olmuşdur.
- 2016-cı ilin sonuna özəlləşdirmə prosesində yaradılmış , səhmləri tam, yaxud qismən dövlətə məxsus 158 səhmdar cəmiyyəti tərəfindən dövlət büdcəsinə, dvident kimi, 2015-ci ildə 40.0 , 2016-cı ildə isə 41.7 min manat daxil edilmişdir.
- Dövlət əmlakının, özəlləşdirilən müəssisə və obyektlərin altındakı torpaqların icarəyə verilməsindən daxilolmalar 2016-cı ildə 7593.3 min manat(2015-ci ildə -7606.8min manat), dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsində isə 5809.5 (2015-ci ildə7491.9 min manat) min manat təşkil etmişdir.

## Şirkətlərin İllik Maliyyə və Fəaliyyət hesabatlarının aşkarlanması praktikasının təhlili

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

EURASIA PARTNERSHIP FOUNDATION

### 2016-cı ilin yekunları

- DB gəlirlərinin tərkibində ölkədə istehsal edilən və qiymətləri tənzimlənən məhsulların satış qiyməti ilə ölkədaxili topdan satış qiymətləri arasındakı fərqdən daxilolmalar 145.0 mln.manata qarşı-114.1mln.manat (78,8%) olmaqla 2014-cü ildəkindən 199.2, 2015-ci ildə isə 69.9mln.manat az olmuşdur.
- Əsas hissəsi SOCAR tərəfindən ödənilən daxilolmaların azalmasının səbəblərini yalnız dünya bazarında satış qiymətinin azalması ilə izah etmək mümkün deyildir. Beləki, 2016-cı ilin DB neftin qiyməti 25doll/barrel götürülmüşdür, faktiki qiymət orta illik- 45.1 doll./barrel təşkil etmiş, hasilat isə il ərzində cəmi neft üzrə 7.8%, qaz üzrə isə-8.8% azalmışdır.

**Şirkətlərin İllik Maliyyə və Fəaliyyət hesabatlarının aşkarlanması praktikasının təhlili**

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

**2016-cı ilin yekunları**

- ✓ HP qiymətləndirməsinə əsasən rəydə qeyd olunan "Qiymət fərqindən Dövlət büdcəsinə 30% həcmində tutulan yığımlar vergi ödəyicisinin vergilər və sair borclarının ödənilməsinə aid edilməməlidir" fikri, məlumatların tam açıqlanmamasının səbəbləri olmasını düşünməyə əsas yaradır.
- ✓ Məsələn, 2016-cı ildə Dövlət Neft şirkətinin xətti ilə konsolidə edilmiş vergilər və digər ödənişlər (Azəriqaz və Azərkimya daxil olmaqla) 101% və ya 1252.3 mln.manat,
- ✓ HPB azişləri üzrə podratçıların mənfəət vergisi isə 96.4%-367.5 mln.manat, olmuşdur.

# Şirkətlərin İllik Maliyyə və Fəaliyyət hesabatlarının aşkarlanması praktikasının təhlili

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

EURASIA PARTNERSHIP FOUNDATION

| | | 2014 | | | 2015 | | | 2016 | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Hesab. | ödən. | ə.borc | Hesab | ödən. | ə.borc | Hesab | ödən. | ə.borc |
| SOCAR | 1763.6 | 1712.2 | 233.3 | 1711.2 | 1409.4 | 2.3 | 1776.0 | 1252.4 | 0.07 |
| Azenrji | 215.4 | 146.7 | 951.2 | 496.1 | 348.7 | 1023.5 | 206.3 | 240.6 | 799.8 |
| Azərsu | 29.8 | 10.2 | 39.9 | 49.9 | 24.6 | 58.4 | 59.2 | 32.2 | 41.6 |
| Azal | 29.7 | 14.6 | - | 204.6 | 31.8 | 46.6 | 82.8 | 81.0 | 11.3 |
| Dəm.yol | 24.7 | 3.2 | 0.9 | 27.5 | 6.6 | 38.8 | 40.3 | 22.8 | 3.7 |

**Şirkətlərin İllik Maliyyə və Fəaliyyət hesabatlarının aşkarlanması praktikasının təhlili**

**2016-cı ilin yekunları**

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

EURASIA PARTNERSHIP FOUNDATION

- Azərsu ASC üzrə- cəlb olunması nəzərdə tutulan kreditlərin (xarici dövlət borcunun) həcmi-1248 mln.ABŞ dolları,cəlb olunan -656.6 mln dollar;
- Azərbaycan Dəmir yolları QSC üzrə-898.4 ( faktiki-545.3) mln.dollar;
- SOCAR üzrə- 26.5 (faktiki-17.6) mln dollar;
- AZAL QSC -təyyarələrin alınması üzrə AR MB-dan alınan vəsaitlər üzrə daxili dövlət borcuna transfer edilmiş (???) - 210 mln.dollar borc qalmaqdadır.

# Təklif və tövsiyyələr

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

EURASIA PARTNERSHIP FOUNDATION

✓ "Açıq hökumət" məntiqinə müvafiq olaraq, Ictimai əhəmiyyətli qurumların fəaliyyətinin açıqlığının sosial-siyasi əhəmiyyətinin milli qanunvericilik səviyyəsində təsbit edilməsi və fəaliyyət normasına çevirilməsinin təmin edilməsi hökumətin əsas prioritetlərindən olmalıdır.

✓ İctimai əhəmiyyətli qurumların fəaliyyəti haqqında müfəssəl Hesabatın (fəaliyyyət planı, fəaliyyətin nəticəliliyi və maliyyə məsrəflərin əsaslandırılması) tərtibi və açıqlanması mexanizminin formalaşdırılması zəruridir.

# Təklif və tövsiyyələr

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

EURASIA PARTNERSHIP FOUNDATION

- ✓ " İctimai əhəmiyyətli qurumların milli qanunvericiliyin təmin olunmasında "pilot" funksiyasını icra etməsinin,  digər strukturlarda qanunlara daha mütəşəkkil əməl olunmasını stimullaşdıra bilməsi nəzərə alınmaqla xüsusi tədbirlərin həyata keşirilməsi vacibdir.
- ✓ Tədqiq olunan strukturlarda informasiya açıqlığının adekvatlığının təmin edilməsi üçün, belə təşkilatlarda elektron saytların  standartlarının hazırlanması və tətbiqinin məcburiliyi zəruridir.

# Təklif və tövsiyyələr

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

EURASIA PARTNERSHIP FOUNDATION

- ✓ Müasir dövrdə informasiyanın mühüm dəyər yaradıcı amilə çevirilməsini nəzərə alaraq, tədqiq edilən təşkilatlarda, ictimai fikrin öyrənilməsi və informasiya arealında yaranan aidiyyatlı məlumatlara reaksiyaların və sorğulara cavabların çevik,əsaslı və səlahiyyətli səviyyədə təmin edilməsi məqsədi ilə, xüsusi fəaliyyətin gücləndirilməsi vacibdir.
- ✓ Əsas prinsip "İctimai əhəmiyyətli strukturlar şübhədən kənar olmalıdır" kimi təsbit edilməlidir.

# Təklif və tövsiyyələr

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

EURASIA PARTNERSHIP FOUNDATION

- ✓ Tədqiq edilən təşkilatların formalaşması və müasir "dayanıqlı inkişafının" əsas faktorunun ***Dövlət himayəsi*** olmasını nəzərə alaraq, milli iqtisadi inkişaf məqsədlərinin dəstəklənməsinin həmin təşkilatların fəaliyyətində həlledici amilə çevirilməsinin təmin edilməsi vacibdir.
- ✓ Hökumətin hesabatlarında belə təşkilatların fəaliyyətinin monitorinqinə xüsusi yanaşma tətbiq edilməlidir. Monitorinqin vəzifələri daxilində ***fəaliyyətin kənar auiditinin təşkili vacibdir.***

# Təklif və tövsiyyələr

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

EURASIA PARTNERSHIP FOUNDATION

- ✓ Tədqiq edilən  təşkilatlarda tətbiq edilən “konsolidə edilmiş” hesabatlılıq qaydasının  dəyişdirilməsinə ehtiyac vardır.  Müxtəlif fəaliyyət istiqamətinə və fərqli ictimai qiymətləndirmə meyarlarına malik iri strukturların hesabatının konsolidasiyası, faktiki vəziyyətin “səbəbkarlarının müəyyənləşdirilməsi və çeviik idarəedici reaksiyaların təmin edilməsinə imkan vermir.
- ✓ Belə təcrübə, Hökumətin fiskal siyasətində ciddi “yoluxucu”  təsirlər yaradır.

AVRASİYA ƏMƏKDAŞLIQ FONDU

Ministry of Foreign Affairs of
the Kingdom of the Netherlands

# Diqqətinizə görə